**Şərəfli yolun yolçusu**

**Akif MƏMMƏDOV,**

***pedaqoji elmlər namizədi***

-

1992-ci ildə "İlin qabaqcıl müəllimi" müsabiqəsinin Azərbaycan dili və ədəbiyyat müəllimləri üzrə respublika turu Bakıdakı 45 saylı məktəbdə keçirilirdi. Komissiyanın sədri mərhum professor Əziz Əfəndizadə idi. Özünün orijinal fikirləri, obyektivliyi və prinsipiallığı ilə tanınan professor bu dəfə də çoxları üçün qəribə və gözlənilməz bir təklif irəli sürdü: "Müsabiqədə iştirak edən müəllimin neçənci sinifdə hansı mövzunu tədris edəcəyi dərsə 5 dəqiqə qalmış elan edilsin...". Bu, iki məqsəd güdürdü: əvvəla, müəllimin istənilən situasiyadan məharətlə çıxmaq qabiliyyəti yoxlanırdı. İkinci də, həmişə özünü göstərən süniliyin və subyektivliyin qarşısı alınırdı. Belə ki, mövzunu və sinfi əvvəlcədən təyin edən müəllim günlərlə ona hazırlaşır, hazır ssenari əsasında məşq edirdi. Çox vaxt müəllim bu işdə təkcə öz məharətindən yox, həm də yol tapdığı metodistlərdən də "bəhrələnirdi" (Belə hallar indi də baş verir).

Komissiyanın üzvləri ( A. Babayev, S. Rüstəmova və B. Abbasov) təklifə tərəfdar çıxdılar. Müsabiqə iştirakçılarının çoxu belə orijinal, həm də çox çətin şərtlə razılaşmadı, hərə bir bəhanə ilə dərsə girməkdən imtina etdi. Ancaq cəsarətlilər də tapıldı. Bunlardan biri də ucqar dağ rayonu Lerikdən gəlmiş **Bayraməli Aslanov** idi: VI sinifdə "Əvəzlik" mövzusu üzrə dərs dedi və komissiya üzvlərinin yekdil rəyinə əsasən 2-ci yerə layiq görüldü (Birinci yeri tutan olmadı). Bu söhbəti professor Ə. Əfəndizadənin özündən eşitmişdim. O vaxt Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda (indiki Təhsil Problemləri İnstitutu). Ə.Əfəndizadənin rəhbərlik etdiyi Azərbaycan dilinin tədrisi şöbəsində işləyirdim. Müsabiqədən şöbəyə qayıdan professor, B. Aslanovu tərifləyir, onun haqqında ürək dolusu danışırdı. Məndə maraq yarandı. Axı, şöbə müdirimiz çox tələbkar adam idi və hər kəsi tərifləyən də deyildi.

**Yaxından tanış olaq.** Bayraməli Aslanov 1948-ci ildə Lerik rayonunun Anzolu kəndində anadan olub. Orta məktəbi bitirəndə arzusu şərqşünas olmaq idi. Ancaq qəbul imtahanlarında yüksək bal toplasa da, müsabiqədən keçmədi (1965). Növbəti il ADU-nun

(indi BDU) filologiya fakültəsinin qiyabi şöbəsinə daxil oldu. 1967-ci ildən doğma kəndi Anzoludakı əsas məktəbdə Azərbaycan dili və ədəbiyyat fənlərini tədris edir. 1977-ci ildə baş müəllim; 1987-ci ildə metodist müəllim, 1992-ci ildə isə ali kateqoriyalı müəllim adlarını qazandı. 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayına nümayəndə seçildi. 1979-cu ildə "SSRİ maarif əlaçısı", 1981-ci ildə "Azərbaycan Respublikası maarif əlaçısı" adlarına layiq görüldü. 1986-cı ildə "Şərəf nişanı" ordeni ilə təltif edildi. Bunlar çox yaxşıdır, bacarıqlı, zəhmətkeş müəllimin əməyinə verilən layiqli qiymətlərdir. Ancaq B. Aslanov özü ömür yolunun ən xoş anları haqqında belə deyir:

**"1998-ci ildə ailə üzvlərim 50 illik yubileyimi keçirmək istəyirdilər. Tale elə gətirdi ki, anadan olduğum gün - martın 25-də yaxın qohumlarım Bakının Azadlıq meydanından məni müqəddəs Həcc ziyarətinə yola saldılar, aprelin 16-da geriyə döndüm. Bu müddət ərzində hər bir müsəlman üçün əziz olan Məkkədəki Kəbə evini, Mədinədəki Peyğəmbər məscidini, Kərbəla, Nəcəf, Kufə, Kazimeyn, Samirra şəhərlərində olan neçə-neçə ziyarətgahlara tapındım. Həmin günləri ömrümün ən xoş, unudulmaz anları hesab edirəm. O anlar məni təmasda olduğum adamlarla həmişə xoş münasibət saxlamağa səsləyir".**

Bayraməli müəllim yaradıcı, təşəbbüskar, həmişə yeniliyə can atan pedaqoqdur. Dərslərində mütərəqqi təlim üsullarından - qruplarla iş, rollu oyun, evriştik müsahibə, problemli təlim metod və priyomlarına üstünlük verir. Bunun nəticəsidir ki, iş təcrübəsi öyrənilmiş və bülleten şəklində nəşr edilərək pedaqoji ictimaiyyət arasında yayılmışdır. Hacı Bayraməli Aslanovun fikrincə, müəllim həmişə yeniliyə can atmalıdır: **"Dərs müəllimin əsəridir. Bu əsərlər üslub cəhətdən bir-birinə bənzəsələr də, məzmun və təşkil olunma cəhətdən fərqlənməlidir**". Təlimdə humanistləşdirməni əsas götürən H. B. Aslanov belə hesab edir ki, müəllim nə qədər bilikli və metodik cəhətdən səriştəli də olsa, şagirdə humanist münasibət bəsləmirsə, uğur qazana bilməyəcək. Tez-tez coğrafiyadan ona dərs demiş Barat müəllimi xatırlayır: "**Bütün uşaqlara xoş münasibət bəslədiyindən hamı coğrafiyanı bütün incəliklərinə qədər öyrənməyə səy edirdi", -** deyir.

H. B. Aslanovun dərs dediyi şagirdlər milli mənsubluğuna görə talışdırlar. Məlumdur ki, talış və Azərbaycan dilləri ayrı-ayrı dil ailələrinə daxil olduqlarından aralarında kəskin fərqlər var. Məktəbə gələnə qədər talış dilində danışan, ailədə bu dildə

ünsiyyətdə olan şagirdlər üçün Azərbaycan dilini mənimsəmək müəyyən çətinliklər yaradır. Bu isə Azərbaycan dili müəllimindən xüsusi səriştə, hər iki dilə bələdlik və metodiki ustalıq tələb edir. Talış dilində qazanılan vərdişlərin mexaniki olaraq Azərbaycan dilinə tətbiqi (interferensiyası) çox vaxt yanlış nəticələrə gətirib çıxanr. Məsələn, talış dilində mənsubiyyət anlayışı sintaktik yolla düzəlir, yəni mənsub əşya şəkilçi qəbul etmir (çımı kitob, ıştı kitob, əçəy kitob, çəmə kitob, şımə kitob, çəvon kitob). Düzgün metodik yol seçilmədikdə bu hal kortəbii şəkildə Azərbaycan dilinə də tətbiq edilir, mənsubiyyət şəkilçiləri unudulur: mənim kitab, sənin kitab, bizim kitab, sənin kitab, onların kitab. Hər iki hal müqayisəli şəkildə öyrədildikdə şagirdlər səhvlərə yol vermirlər. Bayraməli müəllimin fikrincə, talış məktəblərində orfoepik vərdişlər orfoqrafik vərdişlərə nisbətən ləng inkşaf edir. Çünki görmə eşitməyə nisbətən daha əyanidir. Tədris prosesində bu faktı həmişə diqqət mərkəzində saxlayan H.B. Aslanov şagirdlərin rabitəli nitq inkşafını da unutmur. Nəzərə alır ki, bu uşaqlara Azərbaycan dili ikinci dil kimi yox, təhsil dili kimi tədris olunur.

İstər iş təcrübəsində, istərsə də tədqiqatlarında Bayraməli müəllimin çox vaxtlar **dini dəyərlərdən istifadəyə** xüsusi diqqət yetirməsi açıq-aydın hiss olunur. Azərbaycan dili və ədəbiyyatın tədrisində bu faktın önəmliyi nə ilə bağlıdır? H. B. Aslanov bunu belə izah edir: **"Cəmiyyətimizin mənəvi aşınmalara məruz qalmasının əsas səbəblərindən biri də kökümüzdən, dinimizdən uzaq düşməyimizdir. Bu gün milli təhsilimizin dünyanın inkşaf etmiş ölkələrinin təhsili ilə inteqraşiyası barədə çox söhbət açılır. Ölkəmizin təhsil işçiləri dünyanın qabaqcıl ölkələrinin təhsil sistemi ilə tanış olur, mətbuatda açıqlamalar verirlər. Dünyanın inkişaf etmiş ölkələrində din təlim fənləri sırasındadır və gənclərin mənəvi cəhətdən kamilləşməsində xüsusi rol oynayır. Ona görə də yeri gəldikcə Azərbaycan dili və ədəbiyyat dərslərində inteqrasiya yolu ilə dini dəyərlərdən faydalanmağa çalışıram. Belə hesab edirəm ki, dinin Azərbaycan məktəblərində ya ayrıca fənn kimi, ya da inteqrasiya yolu ilə təlim edilməsi çox faydalı olar".**

Hacı Bayraməli ilə yaxından tanışlıq bizi belə qənaətə gətirdi ki, o, islam dinini dərindən bilir. Çoxları kimi kompaniya, dəb xatirinə danışmır. Mərhum babası və atası öz dövrlərinin dini təhsil görmüş ziyalılarından olublar. Hələ uşaq yaşlarından Bayraməliyə islamın vacib əməllərini, "Quran"ı öyrədən atası öz övladına halallıqla yaşamağın hər

şeydən üstün olmağını təlqin etmişdir. Valideynlərindən Hacı Bayraməliyə min ildən artıq yaşı olan “Qurani-Kərim” və zəngin dini kitabxana qalmışdır. Bütün bunlar təcrübəli müəllimə dini dəyərlərdən düzgün faydalanmaqda kömək edir.

**35 illik müəllim ömrü.** Hacı Bayraməli bu illəri təkcə müəllim kimi yaşamayıb, tədqiqatçılıq fəaliyyətinə, elmi axtarışlara bir qədər də əvvəldən başlayıb. Hələ tələbə ikən yazdığı kurs işində göstərdiyi tədqiqatçılıq səriştəsi professor F. Zeynalov tərəfindən yüksək qiymətləndirilir.

O vaxtlar universitetdə ixtisas fənlərindən yüksək qiymət alanlar dövlət imtahanı verməkdən azad edilir, diplom işi üzərində işlədilməklə tədqiqatçılığa yönəldilirdi. B.Aslanov da belələrindən idi. “Müasir türk dillərində düzəltmə isimlər (oğuz qrupu)” mövzusunda yazdıgı diplom işi gələcəyin bacarıqlı tədqiqatçı-aliminin yetişməsindən xəbər verirdi. Sonralar müəllimliyini davam etdirə-etdirə **“Feilin tədrisində lüğət üzrə işin sistemi”** mövzusunda namizədlik dissertasiyası üzərində işlədi. Tədqiqat professor Ə.Əfəndizadənin rəhbərliyi altında apanlırdı. Çoxlarının namizədlik və doktorluq işindən fərqli olaraq, tədqiqatın nəticələri kitabxanalar küncündə yatıb qalmadı, həyatdan, məktəb təcrübəsindən rişələnib boy atan əsər hissə-hissə “Azərbaycan dili və ədəbiyyat tədrisi” jurnalında və digər mətbuat orqanlarında dərc edildi. Ancaq namizədlik işi rəsmi şəkildə müdafiə olunmadı. Ona görə “rəsmi” deyirəm ki, Bayraməli müəllimin tədqiqat işi qeyri-rəsmi şəkildə öz “diplom”unu onsuz da aldı. Bu diploma “Azərbaycan dili və ədəbiyyat tədrisi”nin minlərlə oxucusu, respublikanın saysız-hesabsız müəllim ordusu öz imzasını atdı. Namizədlik mövzusu ilə bağlı onlarla məqalə jumalın səhifələrində həyata vəsiqə aldı.

Sonralar Hacı Bayraməli Aslanov tədqiqat sahəsini daha da genişləndirdi. Dilin və ədəbiyyatın tədrisində özünü göstərən problem məsələlər, çətin tədris edilən mövzular, dilə aid müxtəlif nəzəri problemlər tədqiqata cəlb edildi. Əlbəttə, ucqar dağ kəndində oturub bütün bunları görə bilmək və çox vaxt tədris problemlərinin mərkəzində dayanmaq çətindir. Ancaq aşağıda adlarını verdiyimiz bir neçə məqaləsi göstərir ki, H. B. Aslanov bu çətinliyin öhdəsindən uğurla gəlir:

1. “Dərs yaradıcılıq tələb edir” (“Anasözü”; 1992, №3-4)
2. “Qoşadillilik şəraitində paronim feillərin öyrədilməsinə dair” (“Ana sözü”, 1993, №1-6)

3. “Dil dərslərində dini dəyərlərdən istifadə” (“Azərbaycan dili və ədəbiyyatı tədrisi”, 1998, №2)
4. “Sənətlərin şərəflisi” (“Azərbaycan dili və ədəbiyyatı tədrisi”, 2001, №4) və s.

vhgv

**Müəllimlik çətin** peşədir, **çox çətin peşədir.** Nəzərə alsaq ki, Bayraməli müəllim bu peşəni, vəzifəni təhsil islahatının həyata keçirildiyi bir vaxtda mərkəzdən uzaq, mətbuatın, pedaqoji yeniliklərin nisbətən gec gedib çatdığı ucqar dağ kəndində məharətlə yerinə yetirir, onun işinin həm də nə qədər məsuliyyətli olduğu aşkar olar və bir də nəzərdən qaçırmasaq ki, H.B. Aslanov Azərbaycan dövlət dilini talış balalarına öz doğma dilləri kimi sevdirir və mənimsədir, onun həm də şərəfli yolun bir yolçusu olduğu görünər. Bu çətin, məsuliyyətli və şərəfli yolda Hacı Bayraməli Aslanova daha böyük uğurlar arzulayırıq.

***“Azərbaycan dili və ədəbiyyatı tədrisi”, 2002, №4***